**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**
**AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİ**
**ELMİ ŞURASININ**
**«19» SENTYABR 2014-CÜ İL TARİXLİ İCLASI**

# ÇIXARIŞ № EŞ – 131.12

**SƏDRLİK ETMİŞDİR** **REKTOR PROF. Ə.C.MURADOV**
**ELMİ KATİB:** **PROF. E.M.SADIQOV**
**İŞTİRAK ETMİŞDİR:** Universitetin Elmi Şurasının 97 üzvündən 93 üzvü
**EŞİDİLDİ:** ***Rektor.*** Mərkəzin adının dəyişdirilməsi haqqında.

***QƏRARA ALINDI:***

Azərbaycan Dövlət İqtisad Universitetində ayrı-ayrı fakültələrdə fəaliyyət göstərən qiyabi şöbələr Distant və əlavə təhsil mərkəzinin tərkibinə verilməsi ilə əlaqədar həmin mərkəzin adı dəyişdirilərək DİSTANT, QİYABİ VƏ ƏLAVƏ TƏHSİL MƏRKƏZİ kimi adlandırılsın, ƏSASNAMƏSİ təsdiq edilsin.

**ELMİ ŞURANIN SƏDRİ** **PROF. Ə.C.MURADOV**

**ELMİ ŞURANIN KATİBİ** **PROF. E.M.SADIQOV**

## AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİ
## DİSTANT, QİYABİ VƏ ƏLAVƏ TƏHSİL MƏRKƏZİNİN
## ƏSASNAMƏSİ

### I. ÜMUMİ MÜDDƏALAR

1.1 Azərbaycan Dövlət İqtisad Universitetinin Distant, Qiyabi və Əlavə Təhsil Mərkəzi (bundan sonra – Mərkəz) ADİU-da distant, qiyabi və əlavə təhsil prosesini təşkil edən bir struktur bölməsidir.

1.2 Mərkəz ADİU Elmi Şurasının 29 Mart 2005-ci il tarixli iclasında alınan qərarı ilə "Əlavə Təhsil Mərkəzi" olaraq yaradılmışdır. ADİU Elmi Şurasının 02 Mart 2006-cı il tarixli iclasında alınan qərarla isə mərkəzin adı "Distant və əlavə təhsil mərkəzi" olaraq dəyişdirilmişdir.

1.3. Mərkəz öz fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyasını, Azərbaycan Respublikasının "Təhsil haqqında" Qanununu və digər qanunlarını, Azərbaycan Respublikasının Nazirlər Kabinetinin "Əlavə təhsilin məzmunu, təşkili və əlavə təhsilin hər hansı istiqaməti üzrə təhsil almış şəxslərə müvafiq sənədin verilməsi Qaydası"nı, Azərbaycan Respublikası Təhsil Nazirliyinin müvafiq əmr və sərəncamlarını, Azərbaycan Dövlət İqtisad Universitetinin Nizamnaməsini, ADİU rektorunun əmr və sərəncamlarını, ADİU Elmi Şurasının qərarlarını və bu Əsasnaməni rəhbər tutur.

1.4. Mərkəz bu Əsasnamədə nəzərdə tutulan vəzifələrin yerinə yetirilməsində Azərbaycan Respublikası Təhsil Nazirliyinin müvafiq struktur bölməsi, ADİU-nin digər struktur bölmələri, respublikada və müxtəlif xarici ölkələrdə bu sahədə fəaliyyət göstərən mərkəzlərlə qarşılıqlı fəaliyyət göstərir.

### II. MƏRKƏZİN ƏSAS VƏZİFƏLƏRİ

2. Mərkəzin əsas vəzifələri aşağıdakılardır:

2.1. İnformasiya və kommunikasiya texnologiyalarına əsaslanan distant təhsilalma forması üzrə tədris prosesini təşkil etmək;

2.2. Qiyabi təhsilalma forması üzrə tədris prosesini təşkil etmək;

2.3. Əlavə təhsil üzrə müxtəlif istiqamətlərdə tədris prosesini təşkil etmək;

2.4. Müxtəlif sahələr üzrə sertifikat proqramları, hazırlıq kursları və treyninqlər təşkil etmək;

2.5. Mərkəzdə həyata keçrilən təhsilalma formaları üzrə müsahibə proqramlarının, tədris planlarının, metodik materiallarının, mühazirə proqramlarının hazırlanmasını və imtahanları təşkil etmək;

2.6. ADİU-nin digər fakültələri və kafedraları ilə birlikdə tədrisin yüksək ideya-nəzəri və metodik səviyyədə təşkilini təmin etmək, müntəzəm olaraq tədris prosesinin məzmununu zənginləşdirmək;

2.7. Zərurət yarandığı hallarda tədris prosesinə ADİU-nin professor müəllim heyəti ilə yanaşı respublikanın digər universitetlərinin aparıcı alimlərini, iqtisadiyyatın ayrı-ayrı sahələrinin mütəxəssislərini və dövlət orqanlarının təcrübəli işçilərini cəlb etmək;

2.8. Ölkənin bütün ali və orta ixtisas müəssisələrinin iqtisadçı pedoqoji kadrlarının ixtisasartırma, stajkeçmə və təkmilləşdirilməsini həyata keçirmək;

2.9. Xarici ölkələrin ali təhsil müəssisələri ilə distant, qiyabi və əlavə təhsil formaları sahəsində əməkdaşlıq etmək;

2.10. Həyata keçirilən təhsil formaları üzrə akademik və digər öhdəliklərini yerinə yetirən dinləyicilərə müavafiq qaydada dövlət nümunəli diplomlar, sertifikatlar və digər sənədlər vermək.

## III. TƏHSİL VƏ TƏDRİSİN TƏŞKİLİ

3. Mərkəzdə tədris distant, əyani və qiyabi təhsilalma formalarında təşkil edilir:

3.1. Mərkəzdə tədrisin distant təhsilalma formasında təşkili:

3.1.1. Distant təhsil, ali təhsil müəssisələrində tədrisin informasiya və kommunikasiya texnologiyalarına əsaslanaraq planlandığı və həyata keçirildiyi, tələbə ilə müəllim və tələbələr arasında qarşılışqlı ünsiyyətə əsaslanlanan, fənlərin tədrisinin birbaşa müəllim tərəfindən eyni məkanda olma məcburiyyəti olmadan, eyni vaxtlı (sinxron) qaydada həyata keçirildiyi təhsilalma formasıdır.

3.1.2. “Təhsil haqqında” Azərbaycan Respublikası Qanununa, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 6 avqust tarixli 147 nömrəli qərarı ilə təsdiq edilmiş “Formal təhsilin təşkili qaydaları”na və 2010-cu il 6 sentyabr tarixli

163 nömrəli qərarı ilə təsdiq  edilmiş "Əlavə təhsilin məzmunu, təşkili və əlavə təhsilin hər hansı istiqaməti üzrə təhsil almış şəxslərə müvafiq sənədin verilməsi qaydası" əsasən mərkəz tərəfindən ali təhsil pilləsinin bakalavriat səviyyəsində və yenidənhazırlanma təhsilində distant təhsilalma forması təşkil olunur.

3.2. Mərkəzdə tədrisin qiyabi təhsilalma formasında təşkili:

3.2.1. Mərkəzdə təşkil olunan qiyabi təhsilalma forması ali təhsil pilləsinin bakalavr səviyyəsini əhatə edir.

3.2.1. Mərkəzdə qiyabi təhsilalma forması hər il ADİU tərəfindən müəyyənləşdirilən ixtisas qrupları üzrə təhsil qanunvericiliyinə müvafiq qaydada təşkil olunur.

3.3. Mərkəzdə tədrisin əlavə təhsil formasında təşkili:

3.3.1. Əlavə təhsil hər bir vətəndaşın fasiləsiz təhsil almaq imkanını təmin edir və insan potensialının inkişafının, kadrların intellektual və peşə hazırlığı səviyyəsinin yüksəldilməsi və təkmilləşdirilməsinin, onların daim dəyişən və yeniləşən əmək şəraitinə uyğunlaşdırılmasının, yaşlı vətəndaşların ölkənin sosial, iqtisadi, siyasi və mədəni həyatında fəal və səmərəli iştirakının təmin edilməsi vəzifələrini daşıyır.

3.3.2. "Təhsil haqqında" Azərbaycan Respublikası qanununa əlavə təhsil ixtisasartırma, kadrların yenidən hazırlanması, stajkeçmə və kadrların təkmilləşdirilməsi, təkrar ali təhsil və orta ixtisas təhsili, dərəcələrin yüksəldilməsi və yaşlıların təhsili istiqamətlərini əhatə edir.

3.3.3. Mərkəzdə əlavə təhsil ixtisasartırma, kadrların yenidən hazırlanması və təkrar ali təhsil istiqamətləri üzrə təşkil olunur.

3.3.3.1. Mərkəzdə ixtisasartırma təhsilinin təşkili:

3.3.3.1.1. İxtisasartırma təhsili əlavə təhsilin bir istiqaməti olmaqla, ali, orta ixtisas və ilk peşə-ixtisas təhsili pillələrinin hər hansı birini bitirmək haqqında dövlət sənədi olan kadrların fasiləsiz təhsil almaq imkanını təmin etmək məqsədi ilə əlavə təhsil müəssisələri tərəfindən həyata keçirilən təhsil növüdür.

3.3.3.1.2. İxtisasartırma təhsilinin əsas məqsədi hər bir işçinin və ya mütəxəssisin ixtisası üzrə intellektual və peşə hazırlığı səviyyəsinin yüksəldilməsini və təkmilləşdirilməsini, daim dəyişən və yeniləşən əmək şəraitinə uyğunlaşdırılmasını, ölkənin sosial, iqtisadi, siyasi və mədəni həyatında fəal və səmərəli iştirakını təmin etməkdir.

3.3.3.1.3. Mərkəzdə ixtisasartırma təhsili əyani və distant təhsilalma formalarında həyata keçirilir.

3.3.3.2. Mərkəzdə kadrların yenidənhazırlanma təhsilinin təşkili:

3.3.3.2.1. Yenidənhazırlanma təhsili ilkin baza peşə-ixtisas təhsili almış və müəyyən əmək sahəsində çalışan hər bir vətəndaşın müvafiq sahə üzrə yeni peşə və ixtisasa yiyələnmək istəyini həyata keçirən əlavə təhsil formasıdır və kadrlara olan real tələbatın daha dinamik və çevik surətdə ödənilməsinə xidmət edir. Bu təhsil forması ilkin baza təhsili proqramları ilə yenidən əldə ediləcək ixtisasın baza təhsili proqramı arasındakı fərqin bir tədris ilinə hesablanmış saatdan çox olmaması şərtilə mütəxəssislərə verilən əlavə təhsildir. Proqramlar arasındakı fərq yenidənhazırlanma təhsili verən müəssisə tərəfindən müəyyən edilir.

3.3.3.2.2. Yenidənhazırlanma təhsili aşağıda göstərilən hallara uyğun kadrların hazırlanması tələbatı yarandıqda, müvafiq proqramlar əsasında həyata keçirilir:

- peşə-ixtisas təhsilində yeni ixtisaslar üzrə mütəxəssis hazırlığına başlandıqda, bu ixtisaslar üzrə təhsilverənlərin yenidən hazırlanması;

- ilkin kadr hazırlığı kifayət etməyən ixtisaslar üzrə yenidənhazırlanma;

- müəyyən müddət işləmiş qeyri-ixtisas təhsilli kadrların işlədiyi ixtisas üzrə yenidən hazırlanması;

- sahənin təşkili və idarə olunması üzrə kadrların yenidən hazırlanması.

3.3.3.2.3. Yenidənhazırlanmaya icazə verilmiş ixtisasların, eləcə də bu ixtisasa yiyələnmək üçün tələb olunan baza ixtisaslarının siyahısı hər il Mərkəz tərəfindən müəyyənləşdirilir və təsdiq edilir.

3.3.3.2.4. Mərkəzdə yenidənhazırlanma təhsilinə qəbul kadrların müraciəti və ya onların işlədikləri müəssisələrin sifarişi əsasında aparılır.

3.3.3.2.5. Yenidənhazırlanma təhsilinin təşkili, ixtisaslar və qəbul qaydaları barədə Mərkəz tərəfindən kütləvi informasiya vasitələrində elan verilir.

3.3.3.2.6. Hər tədris ili üçün Mərkəzdə yenidənhazırlanma təhsilinə qəbul və tədris məşğələlərinin başlanma vaxtı barədə ADİU rektoru tərəfindən əmr verilir.

3.3.3.2.7. Mərkəzdə yenidənhazırlanmaya icazə verilmiş ixtisaslar üzrə müsahibə proqramları hazırlanır və yenidənhazırlanmaya dinləyici qəbulu bu

proqramlar əsasında ADİU rektorunun əmri ilə yaradılmış müsahibə komissiyası tərəfindən həyata keçirilir.

3.3.3.2.8. Yenidənhazırlanma təhsilinə qəbul haqqında müsahibə komissiyasının qərarı ADİU rektoru tərəfindən əmrləşdirilir.

3.3.3.2.9. Mərkəzdə yenidənhazırlanma təhsili əyani və distant formada həyata keçirilir və müddəti bir tədris ilidir.

3.3.3.2.10. Yenidənhazırlanma proqramlarında təhsil tədris planları əsasında minimum 60 kredit həcmində reallaşdırılır.

3.3.3.2.11. Mərkəzdə mütəxəssislərin yenidən hazırlanmasında müxtəlif tədris formalarından (mühazirə, seminar, müstəqil işlər, fərdi və qrup üzrə məs-ləhətlər, tədris ekskursiyaları, referatların hazırlanması və qiymətləndirilməsi, biliklərin test üsulu ilə yoxlanması, pedaqoji təcrübə və s.) istifadə olunur.

3.3.3.2.12. Tədris prosesində yeni təlim texnologiyaları, interaktiv təlim metodları, informasiya və kommunikasiya texnologiyaları tətbiq edilir.

3.3.3.2.13. Tədrisin təşkilinə ADİU-nun ştatlı müəllimləri ilə yanaşı, digər ali təhsil müəssisələrindən və təşkilatlardan mütəxəssislər dəvət oluna bilər.

3.3.3.2.14. Tədris proqramı tam yerinə yetirildikdən sonra Mərkəz tərəfindən dövlət attestasiyası təşkil olunur.

3.3.3.2.15. Yenidənhazırlanma təhsili üzrə proqramları tam mənimsəyən, dövlət attestasiyasından müvəffəqiyyətlə keçən hər bir dinləyiciyə vahid formada dövlət sənədi - diplom verilir.

3.3.3.2.16. Yenidənhazırlanma haqqında vahid diplom blankları Azərbaycan Respublikası Təhsil Nazirliyi tərəfindən Mərkəzin sifarişi əsasında verilir.

3.3.3.2.17. Hər tədris ilinin sonunda Mərkəz tərəfindən yenidənhazırlanma təhsilinin yekunları və diplomların verilməsi barədə Azərbaycan Respublikası Təhsil Nazirliyinə hesabat təqdim edilir.

3.3.3.2.18. Mərkəzdə yenidənhazırlanma təhsili ödənişli əsaslarda təşkil olunur. İxtisas proqramları üzrə təhsil haqqının miqdarı ADİU rəhbərliyi tərəfindən müəyyən edilir və yenidənhazırlanma dinləyiciləri tərəfindən ixtisas proqramlarına qeydiyyat zamanı tam şəkildə ödənilir.

3.3.3.3. Mərkəzdə təkrar ali təhsilin təşkili:

3.3.3.3.1. Təkrar ali təhsil ilkin baza peşə-ixtisas təhsili proqramı ilə yenidən əldə ediləcək ixtisasın baza təhsil proqramı arasındakı fərq bir tədris ilinə hesablanmış saatdan çox olduqda, mütəxəssislərə verilən əlavə təhsil növüdür. Proqramlar arasındakı fərq təkrar ali təhsil verən müəssisə tərəfindən müəyyən edilir.

3.3.3.3.2. Mütəxəssis hazırlığı işində çevikliyi və ayrı-ayrı şəxslərin əlavə ixtisas təhsili almaq arzusunu təmin etmək məqsədi ilə təkrar ali təhsil bu təhsili almaq istəyən şəxslərlə və ya onların işlədikləri idarə və təşkilatlarla müvafiq təhsil müəssisəsi arasında bağlanmış müqavilələr əsasında həyata keçirilir.

3.3.3.3.3. Mərkəzdə təkrar ali təhsil ADİU-da hazırlanan ixtisaslar üzrə aparılır.

3.3.3.3.4. Təkrar ali təhsilin məzmunu ADİU tərəfindən təsdiq edilmiş tədris planları və proqramları əsasında müəyyənləşdirilir.

3.3.3.3.5. Mərkəzdə təkrar ali təhsil əyani, qiyabi və distant təhsilalma formalarda həyata keçirilir.

3.3.3.3.6. Mərkəzdə təkrar ali təhsil üzrə qəbul qaydaları və müvafiq ixtisaslar üzrə qəbul olunacaq tələbələrin sayı mövcud maddi-texniki baza və elmi-pedaqoji potensial nəzərə alınmaqla, ADİU tərəfindən müəyyənləşdirilir.

3.3.3.3.7. Mərkəzdə təkrar ali təhsilə tələbə qəbulu ADİU rektorunun əmri ilə yaradılmış müsahibə komissiyası tərəfindən həyata keçirilir.

3.3.3.3.8. Təkrar ali təhsil üzrə proqram və tədris planı əsasında ali təhsilini müvəffəqiyyətlə başa vuranlara bakalavr dərəcəsi və ali təhsil haqqında diplom verilir.

3.3.3.4. Mərkəzdə müxtəlif sahələr üzrə sertifikat proqramlarının, hazırlıq kurslarının və treyninqlərin təşkil edilməsi:

3.3.3.4.1. Təhsilalanların fasiləsiz təhsil almasını, daim yeniləşən, müasir standartlara uyğun gələn biliklərə yiyələnməsini, cəmiyyətin tələbatının daha səmərəli ödənilməsini, şəxsiyyət kimi inkişaf etməsini və ömür boyu təhsilin hamı üçün açıq və bərabərimkanlı olmasını təmin etmək, yüksək intellektual səviyyəyə və praktiki iş qabiliyyətinə, yeni texnologiyalara yiyələnmək, informasiya axınında çevik istiqamət tapmaq bacarığını formalaşdırmaq, cəmiyyətin yüksək səviyyəli və rəqabətqabiliyyətli kadr potensialına tələbatının ödənilməsi üçün real zəmin yaratmaq məqsədiylə Mərkəzdə müxtəlif sahələr üzrə sertifikat proqramları, hazırlıq kursları və treyninqlər təşkil edilir.

3.3.3.4.2. Təşkil olunan sertifikat proqramlarının, hazırlıq kurslarının və treyninqlərin istiqamətləri, məzmunu, müddətləri, tədris prosesinin təşkili, təhsil haqqının miqdarı və ödəniş qaydaları ADİU rəhbərliyinin razılığı əsasında Mərkəz tərəfindən müəyyənləşdirilir.

3.3.3.4.3. Mərkəzdə təşkil olunan sertifikat proqramlarına, hazırlıq kurslarına və treyninqlərə ADİU-nun ştatlı müəllimləri ilə yanaşı peşəkar təlimçilər də cəlb olunur.

## IV. MƏRKƏZİN FƏALİYYƏTİNİN TƏŞKİLİ

4.1 Mərkəzin strukturu, ştat cədvəli və işçilərin say tərkibi ADİU rektoru tərəfindən müəyyən edilir.

4.2. Mərkəzin strukturuna daxildir:

- Qiyabi təhsil şöbəsi,

- Əlavə təhsil şöbəsi,

- Distant təhsilin təşkili şöbəsi.

4.3. Mərkəzə ADİU rektoru tərəfindən vəzifəyə təyin edilən və vəzifədən azad edilən direktor rəhbərlik edir.

4.4. Direktor Mərkəzə həvalə edilmiş vəzifələrin yerinə yetirilməsinə görə şəxsən məsuliyyət daşıyır.

4.5. Mərkəzin direktorunun ADİU rektoru tərəfindən vəzifəyə təyin edilən və vəzifədən azad edilən müavini (müavinləri) vardır.

4.6. Mərkəzin direktoru:

4.6.1. Mərkəzin fəaliyyətini təşkil edir və ona rəhbərlik edir;

4.6.2. Mərkəzin tabeliyində olan şöbələr və əməkdaşlar arasında iş bölgüsü aparır, onların fəaliyyətini əlaqələndirir, əmək, icra və xidmət intizamına riayət etmələrinə nəzarət edir;

4.6.3. Mərkəzə həvalə edilmiş vəzifələrin icrasını təmin etmək məqsədilə tərtib edilmiş iş planlarını və digər bu kimi sənədləri imzalayır, habelə iş planında nəzərdə tutulmuş tədbirlərin vaxtında və keyfiyyətlə həyata keçirilməsinə nəzarət edir;

4.6.4. Mərkəz üzrə ADİU Elmi Şurasında müzakirə edilməli məsələləri müəyyən edir və bu barədə təkliflərini ADİU-nun rəhbərliyinə təqdim edir, Mərkəz tərəfindən bu Əsasnamənin 2-ci bəndində göstərilən hüquqi aktların vaxtında və lazımi səviyyədə icrasını təmin edir;

4.6.5. Mərkəzin əməkdaşları barəsində həvəsləndirmə və intizam tənbehi tədbirləri görülməsi üçün ADİU-nun rəhbərliyinə təqdimatlar verir;

4.6.6. Ştatdankənar işçiləri müqavilə əsasında Mərkəzin işinə cəlb edilməsini təşkil edir;

4.6.7. Mərkəzin vəzifələrini yerinə yetirmək üçün səlahiyyətləri daxilində ADİU-nun digər strukturlarından zəruri məlumat və sənədləri alır;

4.6.8. Daxil olan məktub, ərizə, şikayət və təkliflərə qanunvericilikdə nəzərdə tutulmuş qaydada baxılmasını təşkil edir;

4.6.9. Mərkəzi təmsil edir.